# Qəbələdə VII Beynəlxalq Musiqi Festivalına hazırlıq işləri görülür

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda çoxsaylı mədəniyyət layihələri həyata keçirilir. Bu mədəniyyət tədbirlərindən biri olan Qəbələ Beynəlxalq Musiqi Festivalı öz möhtəşəmliyi ilə musiqisevərlərin rəğbətini qazanıb.

AZƏRTAC xəbər verir ki, iyulun 25-dən başlayaraq qədim Qəbələ şəhəri Heydər Əliyev Fondunun möhtəşəm beynəlxalq layihəsi olan bu musiqi festivalına yenidən ev sahibliyi edəcək. Qəbələ şəhərində iyulun 31-dək davam edəcək VII Beynəlxalq Musiqi Festivalında Azərbaycandan və xarici ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edəcəklər. Hazırda festivalın keçiriləcəyi ərazidə musiqi bayramına ciddi hazırlıq işləri görü-



lür. Rayon icra hakimiyyətinin, idarə və təşkilatların birgə səyi ilə Qəbələnin küçələrində, park və bağlarında abadlıq işləri həyata keçirilir, gecə işıqlandırma sistemi qaydaya salınır, şəhərdə səliqə-sahman yaradılır.

Festivalın proqramına uyğun olaraq açıq hava altında keçiriləcək konsertlər üçün səhnə quraşdırılacaq. Bəzi konsertlər isə “Qafqaz Resorte” otelində keçiriləcək. Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşacaq musiqi festivalının proqramı olduqca zəngindir. Festivalda Rusiya, Ukrayna, İtaliya, İspaniya, İsrail, Avstriya, Xorvatiya və Almaniyadan dünya şöhrətli musiqiçilər və kollektivlər – İtaliya Simfonik Orkestri, “Moskva virtuozları” kamera orkestri, Avstriya Vayner Akademiyasının kamera ansamblı, “Flamenko” ansamblı, “Dubrovnik Guitar Trio”, Andrey Qavrilov, Oksana Yablonskaya, Cankarlo Pazolini, Janna Gandelman, Aleksandr Rojdestvenski, Jeremi Menuxin, Paul Meyer, Aleksandr Gindin, Taras Yaqopud və başqaları iştirak edəcəklər.

Xatırladaq ki, 2009-cu ildən ənənəvi olaraq hər il keçirilən bu musiqi festivalı ölkəmizdə və onun hüdudlarından kənarda böyük əks-səda doğurur.

# Gözdən əlil şəxslərin peşə reablitasiyası təmin edilib

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bu ilin birinci yarımilində 48 nəfər gözdən əlil şəxs peşə hazırlığı kursuna cəlb edilib.

Həmin şəxslərin 24 nəfəri xüsusi vasitələrlə ingilis dili üzrə peşə təlimi keçiblər. Qalan 24 nəfər gözdən əlil şəxsə isə brayl sistemi əsasında ofis proqramları üzrə kompüter istifadəçisi peşəsi öyrədilib. Gözdən əlil şəxslər üçün peşə hazırlığı kursları xüsusi təchiz edilmiş sinif otaqldarında təşkil olunub.

Gözdən əlil şəxslərin sosial, o cümlədən peşə reablitasiyasının daha dolğun və səmərəli şəkildə həyata keçirilməsi məqsədilə hazırda ƏƏSMN tərəfindən Bakının Sabunçu rayonunda gözdən əlillər üçün Tədris-bərpa Mərkəzi inşa etdilər. Mərkəzdə bu təbəqədən olan şəxslərin sosial reablitasiyası, o cümlədən gündəlik həyatda zəruri bacarıq və vərdişlərə, eləcə də peşə əmək qabiliyyətlərinə yiyələnmələri və s. istiqamətlərdə işlər aparılacaqdır.

# Türklər Məkkəyə metro çəkəcək

Türkiyə inşaat Şirkəti Məkkəyə metro çəkəcək. Lakin xəttin inşasına gələn ildən başlanacaq. Türkiyənin «Kolin inşaat» Şirkəti Səudiyyə Ərəbistanında Məkkəyə metro çəkilməsi haqqında tenderi qazanan konsorsiuminin (iki və daha çox şirkətin müvəqqəti olaraq həyata keçirdiyi iş) tərkibində yer alıb. Məkkəyə çəkilən metro xəttlərindən birinin uzunluğu 11,9 kilometr və 3 stansiyadan ibarət olacaq. İkincinin uzunluğu isə 13 kilometr və 6 stansiya nəzərdə tutulur.

Layihənin 2019-cu ilə qədər tamamlanacağı planlaşdırılır.

Konsersium tenderi 2,3 milyard dollarlıq təkliflə qazanıb.

«Kolin inşaat» şirkəti «İsolux Corsan» və Səudiyyə Ərəbistanın «Hail» şirkəti ilə müqəddəs şəhərə iki metro xətti çəkiləcək.

# Rayon tarix-diyarşünaslıq muzeyində

## Ekskursiyalar davam edir

Son günlər muzeyimizə xarici qonaqların gəlişi daha ardıcıllıq təşkil edir. Almaniya, Fransa, İran, Amerika, Rusiya və s. ölkələrdən gələn qonaqlar muzeyimizdə olmuşlar. 2015-ci il İlk Avropa oyunlarını seyr edən xarici vətəndaşlar Azərbaycanın bundan da böyük tarixi layihələrə imza ataraq belə təntənəli, möhtəşəm beynəlxalq tədbirlərin keçirməsini arzulamışlar. Xatirə kitabına ürək sözlərini yazan qonaqlar Azərbaycanı gördükləri, gəzdikləri üçün şad olduqlarını qeyd etmişlər. Onlar artıq Azərbaycanı möhtəşəm tədbirlər məkanı kimi tanıyır, buradan xoş arzularla ayrıldıqlarını söyləyirlər.

## Xalq sənəti nümunələri

Bildiyimiz kimi Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində bütün mənəvi sərvətlərimiz qorunur. Xalq sənəti nümunələri muzeyimizin ekspozisiya salonlarında daha geniş yer tutur. Misgərlik nümunələri etnoqrafiya zalında xüsusi guşədə sərgilənir. Xüsusi naxışlarla, milli ornamentlərlə bəzədilən, böyük ustalıqla hazırlanan bu nümunələr artıq tarixə qovuşmuşdur. Belə nümunələrə hal-hazırda yalnız muzeylərdə rast gəlinir. Muzeyimizin ekspozisiyasına zənginlik verən bu nümunələr hər bir tamaşaçıda maraq oyadır. Muzeyin direktoru Xalis Məmmədov XVIII-XIX əsrləri əks etdirən muzey eksponatlarından ibarət “Xalq sənəti nümunələri” adlı sərgi təşkil etmişdir. Tariximizi əks etdirən bu nümunələri görmək istəyən hər kəsi muzeyimizə dəvət edirik.

# TƏQVİMDƏN SƏTİRLƏR

**21 iyul:** Məşhur Amerika yazıçısı, Nobel mükafatı laureatı **Ernest Heminquev** (1889-1961) anadan olmuşdur. Bir müddət jurnalistlik etmişdir. “Qadınsız kişilər”, “Əlvida silah” romanları, “Qoca və dəniz” povesti məşhurdur. Ömrünün son illərində dərin ruhi sarsıntı keçirmiş və intihar etmişdir.

**22 iyul:** Azərbaycan milli mətbuatının yaranması günüdür. Bu tarix 1875-ci ildə ilk dəfə ana dilində çap olunan “Əkinçi” qəzetinin tarixi ilə bağlıdır.

Fizika-riyaziyyat elmləri doktoru Zərifə İskəndərzadə 1935-ci ildə dünyaya gəlib. EA-nın Fizika İnstitutunda laboratoriya müdiri vəzifəsində işləmişdir. Pedaqoji fəaliyyət göstərib. Təqiqatları yarımkeçiricilərə aiddir.

**23 iyul:** Erməni silahlı birləşmələri 1993-cu ildə Azərbaycanın **Ağdam rayonunu** işğal ediblər.

Xalq rəssamı, Azərbaycan Dövlət mükafatı laureatı **Maral Rəhmanzadə** (1916-2008) dünyaya gəlib. Yaradıcılığında əmək və məişət mövzuları üstün yer tutur. Kitab qrafikası sahəsində də geniş fəaliyyət göstərib. Əsərləri bir sıra xarici ölkələrdə nümayiş etdirilib, Kubada fərdi sərgisi göstərilib.

Ədəbiyyatşünas və publisist **Abdulla Sur, Abdulla Tofiq (Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə)** Gəncədə (1883-1912) anadan olub. Müəllim işləyib. Dövri mətbuatda fəal çıxış edib. Ədəbiyyatşünas və publisist kimi tanınıb. Təqlidçilik əleyhinə çıxıb, ideyalılığı və novatorluğu ön plana çəkib.

**24 iyul:** Fransız yazıçısı Aleksandr Düma (1802-1870) anadan olub. Zəngin yaradıcılığı var, 300-ə qədər əsər yazıb. Yaradıcılığa dramaturq kimi başlayıb, lakin tarixi-macəra romanları onu məşhurlaşdırıb. Qafqazda, o cümlədən Azərbaycanda olub. “Parisdən Həştərxana”, “Qafqaz” kitablarında Bakının tarixi abidələrindən, neftindən bəhs edib. “Üç müşketyor” romanı dilimizə tərcümə olunub, “Qanlı qaya” pyesi Azərbaycan səhnəsində tamaşaya qoyulub.

Rus yazıçısı **Nikolay Çernışevski** (1829-1889) anadan olub. “Sovremennik” jurnalını nəşr etdirib. Rus ədəbiyyatında ilk dəfə inqilabçı fəhlə obrazı (Raxmetov) yaradıb. Məşhur “Nə etməli” əsərini həbsxanada yazıb.

**25 iyul:** Kimyaçı alim, akademik **Sergey Lebedev** (1874-1934) anadan olub. Elmi tədqiqatları ilə dünyada ilk dəfə 1910-cu ildə sintetik butadion kauçukunu alıb.

**26 iyul:** İngilis dramaturqu, Nobel mükafatı laureatı **Corc Bernard Şou** (1856-1950) anadan olub. Əvvəllər jurnalist kimi fəaliyyət göstərib, sonralar ədəbi yaradıcılığa başlayıb, romanlar yazıb, daha sonralar dramaturq kimi məşhurlaşıb. Onun “Şeytanın şagirdi” pyesi Azərbaycanda səhnəyə qoyulub. Yeganə faciə əsəri “Müqəddəs Joanna” Janna Darka həsr olunub.

**28 iyul:** Bəstəkar, xalq artisti **Vasif Adıgözəlov** (1935-2007) anadan olmuşdur. Müxtəlif janrlı musiqi əsərləri yazıb. 4 simfoniyanın, 2 opera, operetta, oratoriya, 3 kantata yazmış, musiqi mədəniyyətinin inkişafında fəal iştirak etmişdir. “Çanaqqala” oratoriyası Türkiyədə səsləndirilmiş və böyük rəğbət qazanmışdır. 1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi seçilmişdir.

Məşhur geoloq, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı **Fərman Salmanov** (1928-2007) Şəmkirdə anadan olmuşdur. Tümen neftinin kəşfi onun adı ilə bağlıdır. Sonralar Tümen Baş Geologiya İdarəsinin rəisi, SSRİ geologiya nazirinin müavini vəzifələrində işləmiş, Rusiya EA-nın müxbir üzvü olmuşdur.

Materialist alman filosofu **Lüdviq Feyerbax** (1804-1872) anadan olmuşdur.

**29 iyul:** rus bəstəkarı, akademik **Boris Asafyev** anadan olmuşdur. Balet musiqisinin inkişafına sanballı töhfələr verib, onun “Slavyan gözəli” baleti “Aşıq Qərib dastanı” və Nizaminin “Yeddi gözəl” poeması əsasında yazılmışdır.

**30 iyul:** Belçika rəssamı **Frans Mazerel** (1889-1972) anadan olmuşdur. 1909-cu ildən sonra əsasən Fransada yaşamışdır. Əsərlərində zorakılığa və istismara qarşı siyasi etirazını bildirmişdir.